# Azadlıq və müstəqilliyin ilk sədasını duyuran Cümhuriyyətimiz

*Tbilisi şəhərində yerləşən Azərbaycan Milli Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edilmişdir. Azərbaycan xalqı istiqlaliyyətini və müstəqillik əzmini nümayiş etdirərək özünün və Şərqin ilk demokratik, hüquqi və dünyəvi parlament respublikasını yaratmışdır. Bununla da Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk parlamentli respublika olaraq tarixə düşmüşdür.*

AXC parlamentli idarəetmə formasına malik, demokratik prinsiplərə əsaslanan və qadınlara seçki hüququ verən ilk müsəlman dövlətlərdən biri idi. Lakin bu cümhuriyyət uzun ömürlü olmadı. 1920-ci ilin 28 aprel tarixində Sovet Rusiyası tərəfindən işğal edildi və Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti zamanı Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sistemində tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırılmış, Dövlət bayrağı və Azərbaycan vətəndaşlığı təsis olunmuşdur. Həmçinin qısa müddət ərzində olduqca mütərəqqi sayılan müddəaları özündə əks etdirən çoxsaylı qanunlar qəbul olunmuşdur. Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli və siyasi şüurunun, yüksək mədəniyyətinin nəticəsi idi. 23 ay qısa müddət olsa da, bu müddət ərzində AXC bir çox mühüm nailiyyətlər əldə etmişdir. Bu nailiyyətlər ölkənin təhsil sistemindən də yan keçməmişdir. Belə ki, 1918-ci ilin avqustunda AXC-nin müvafiq qərarı ilə tədris müəssisələrində təhsilin ana dilində aparılmasına başlanmış, 1919-cu ilin sentyabrında Xalq Cümhuriyyəti Parlamenti tərəfindən Bakı şəhərində universitet açmaq haqqında qanun qəbul edilmişdir. Xalq Cümhuriyyətinin dövründə universitet ilə yanaşı, digər ali və orta təhsil müəssisələrinin, habelə mədəniyyət ocaqlarının açılması üçün hazırlıqlar görülmüşdür.

Hökumət quruculuğunda ədliyyə sahəsinə də xüsusi önəm verilib ki, məhz 1918-ci il mayın 28-də - Cümhuriyyətin yarandığı gün Ədliyyə Nazirliyi də təsis edilmiş, həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul olunmuşdur. Uzun illər Sovet hökumətinin işğalı altında olan Azərbaycan nəhayət XX əsrin sonlarında Ulu Öndər Heydər Əliyevin siyasi bilik və bacarıqları, uzaqgörən siyasəti sayəsində yenidən



öz müstəqilliyinə qovuşmuş və suverenliyini bərpa etmişdir. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etmiş, bundan sonra Azərbaycan Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi ilə bağlı bir çox önəmli və ibrət götürüləsi fikirlər söyləmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, o dövrdə Azərbaycanın öz istiqlaliyyətini bəyan etməsi heç də təsadüfi hadisə deyildi. Hələ XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərindən xalqımızın mütəfəkkir şəxsiyyətlərinin, qabaqcıl insanlarının fəaliyyəti nəticəsində Azərbaycanda milli oyanış, milli dirçəliş hissləri get-gedə artmışdı. Artıq XX əsrin əvvəllərindən, demək olar ki, xalqımız, onun qabaqcıl şəxsiyyətləri müstəqillik arzusu ilə yaşamışlar. Məhz Ulu Öndərin bu təfəkküründən yararlanan və onun siyasi kursunu davam etdirəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi, siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün əsaslı tədbirlər görülür. Bakı şəhərinin İstiqlaliyyət küçəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə İstiqlal Bəyannaməsi abidəsi ucaldılmış, həmçinin ölkə başçısı tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik və 100 illik yubileyinin keçirilməsi barədə sərəncamlar imzalanmışdır. Bundan başqa, Prezident İlham Əliyev 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmiş və Azərbaycan Respublikasının 2018-ci il 01 may tarixli Qanunu ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" təsis olunmuşdur. Həmçinin 15 oktyabr 2021-ci il tarixində "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olmuşdur. Sözügedən qanunla 28 may Müstəqillik Günü, 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir.

Bu gün ölkə başçısı cənab İlham Əliyevin dövlətimiz üçün atdığı hər bir addım və qəbul etdiyi hər bir qərar Azərbaycanın müstəqilliyinin və suverenliyinin qorunması, ölkənin günü-gündən inkişaf etdirilməsi, xalqımızın rifahı və sosial-iqtisadi durumunun yaxşılaşması naminə atılan addımlardır. Məhz Prezident İlham Əliyevin uzaqgörən siyasəti, uğurlu qərarları və xalqımızın mərd oğullarının sücaəti sayəsində işğal altında olan torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz bərpa edildi və müstəqillik simvollarımızdan olan Azərbaycanın üçrəngli bayrağı bütün bölgələrimizdə dalğalandırıldı.

**Pərvanə VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 28 may (№110).- S.18.